# Füzuli: taxıl biçilir, pambıq becərilir, barama təhvil verilir…





**_❐ Füzuli respublikanın böyük əraziyə, əlverişli təbii iqlimə, geniş imkanlara malik iri kənd təsərrüfatı rayonlarından hesab olunurdu. Ötən əsrin 70-80-ci illərində bu bölgə öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, üzümçülük, taxılçılıq, pambıqçılıq, baramaçılıq sahəsində xüsusilə yüksək göstəricilər əldə edilmişdir. Ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi həmin illərdə dəfələrlə Füzuli rayonuna tarixi səfərlər etmiş, ayrı-ayrı təsərrüfatlarda olmuş, kənd əməkçiləri ilə unudulmaz görüşlər keçirmiş, öz qiymətli məsləhət və tövsiyələrini vermişdir. Qədirbilən füzulililər həmin görüş və söhbətləri bu gün də əziz bir xatirə kimi ürəklərində və yaddaşlarında yaşadırlar._**

Olduqca fərəhlidir ki, həmin tarixi ənənə indi də böyük uğur və ardıcıllıqla davam etməkdədir. Belə ki, Prezident İlham Əliyev son illər 4 dəfə bu cəbhə bölgəsinə səfər etmiş, müxtəlif təyinatlı obyektlərin açılışında, yaxud təməlqoyma mərasimlərində olmuş, rayon ictimaiyyətinin nümayəndələri ilə səmimi görüşlər keçirmişdir. Nəticədə, ərazisinin 70 faizinin hələ də işğal altında olmasına baxmayaraq, bölgədə bütün sahələrdə dinamik inkişaf və yüksəliş baş vermiş, adamların sabaha olan inam və ümidləri daha da artmış, yeni-yeni imkan və ehtiyat mənbələri üzə çıxarılmışdır. Heç də təsadüfi deyildir ki, füzulilər bu gün əldə etdikləri uğurları haqlı olaraq ölkə Prezidentinin diqqət və qayğısı kimi qiymətləndirir, daha səy və bacarıqla işləyir, bu qayğıya əməli işlə cavab verməyə çalışırlar.

Biz bu günlərdə rayonda olarkən bax, belə bir işgüzarlığın, səy və mütəşəkkiliyin şahidi olduq. Əvvəlcə barama qəbulu məntəqəsinə gəldik. Rayon icra hakimiyyəti aparatının böyük məsləhətçisi Vüqar Teymurovun verdiyi məlumata görə, artıq son kiloqramlar qəbul olunur. Məsələ burasındadır ki, Füzuli baramaçıları cari il üçün müəyyən edilmiş hədəfə respublika üzrə birinci çıxmışlar. İndiyə kimi qəbul məntəqələrinə 33 ton 280 kiloqram əvəzinə 36 ton məhsul təhvil verilmişdir. Əlbəttə bu, hələ son hədd deyil. Rayonun qabaqcıl kümçülərindən hesab olunan Nəbi Zeynalov dedi:

– Dünən qəbul məntəqəsinə 809 kiloqram barama təhvil vermişəm. Ancaq məhsul dərimi hələ tam başa çatmayıb. Ona görə də nəticələrin xeyli artacağını gözləyirəm.

Biz barama qəbulu məntəqəsində Ağgül Bağırova, Nürəddin Babaşov, Akif Əliyev və Afət Məmmədovla da görüşüb söhbət etdik. Eyni vədləri onlardan da eşitdik. Bütün bunlara əsaslanaraq deyə bilərik ki, bu il Füzuli baramaçıları məhsul istehsalını daha da artırmaq uğrunda mübarizə aparırlar.

Mütəxəssislərin və qabaqcıl taxılçıların gəldiyi yekdil nəticə bundan ibarətdir ki, Füzuli torpağı sarı kəhrəba istehsalını inkişaf etdirmək üçün çox əlverişlidir. Bu həqiqəti son illərin rəqəm və göstəriciləri bir daha təsdiq edir. Məsələn, hazırda Füzuli respublika üzrə 100 min ton taxıl istehsal edən rayonlar sırasındadır. Əgər nəzərə alsaq ki, rayon ərazisinin 70 faizi hələ də düşmən tapdağı altındadır, digər tərəfdən əkin sahələrinin böyük hissəsi cəbhə xəttində yerləşir, onda mənzərə tam aydın olar. Başqa sözlə desək, söhbət hər hektarın məhsuldarlığını daha da artırmaqdan, yerli şəraitə uyğun toxum növlərinin seçilməsindən və s. gedir.

Bizi Lələtəpəyə – Fərhad İbrahimovun taxıl sahəsinə gətirən də elə bu həvəs və maraq idi. Öyrəndik ki, Fərhad, əslində, Horadiz kəndinin sakinidir. Həmin kənd hələ də işğal altında olduğundan o, başqa ərazilərdə əkin-biçinlə məşğul olur. Artıq burada arpa biçini başa çatdırılmışdır. Deməli, ilkin nəticələr barədə danışmaq olardı:

– Bu il 146 hektarda buğda, 34 hektarda arpa yetişdirmişik – deyə qabaqcıl fermer həvəslə məlumat verdi. - Gördüyünüz kimi, zəmilərdə bol məhsul var. Havalar da biçin üçün çox əlverişli keçir. Ona görə də hər dəqiqənin qədrini bilir, biçin kampaniyasını tez və itkisiz başa çatdırmağa çalışırıq. Hələlik nəticələrdən razıyıq. Belə ki, bu günə kimi hər hektarın məhsuldarlığı 35 sentner təşkil edir.

Balaxan Məmmədovla çoxdan tanışıq. Cəbhə xəttində yerləşən Alıxanlı kəndində yaşayır. Rayonda haqlı olaraq onun başçılıq etdiyi kollektivi qabaqcıl təcrübə məktəbi hesab edirlər. Bu, əlbəttə heç də, öz-özünə yaranmamışdır. Sözsüz ki, burada illərin təcrübəsi, yüksək səy və işgüzarlıq əsas şərtdir. Balaxan özü bu barədə danışarkən dedi:

– Düzdür, biz heyvandarlıqla



da məşğul oluruq, pambıq da, şəkər çuğunduru da, barama da, bağ-bostan məhsulları da yetişdiririk. Ancaq məşğul olduğumuz əsas sahə taxılçılıqdır. Əsas gəlirimiz də elə taxılçılıqdandır. Bu il 165 hektarda buğda, 50 hektarda isə arpa yetişdirmişik. Şum, səpin və becərmə tədbirləri nəzərdə tutulmuş müddətdə və yüksək kefiyyətlə aparılmışdır. Zəmilərdə gördüyümüz hazırkı vəziyyət də bunu bir daha təsdiq edir. Məhsuldarlıq da nəzərdə tutulduğundan yüksəkdir. Hələlik hər hektarın məhsuldarlığı 37 sentnerdir. Ümid edirik ki, mövsümün sonunadək biz bu rəqəmi daha da artıracağıq.

Arayatlı kəndi. Bir vaxtlar bu kəndin adı dillər əzbəri idi, mətbuat, radio, televiziya buradan materiallar hazırlayır, verilişlər verirdilər. Respublikanın adlı-sanlı əmək adamı, 2 dəfə Sosialist Əməyi Qəhrəmanı Şamama Həsənova uzun illər bu kənddəki təsərrüfata bacarıqla rəhbərlik etmişdir. Elə mən özüm bölgə müxbiri kimi dəfələrlə burada yaşayan sadə, fədakar insanlar, xüsusilə pambıqçılar haqqında materiallar hazırlamışam.

**Rayonun qabaqcıl fermerlərindən hesab olunan Mirmürvət Abbasovla görüşmək istəyimiz də görünür elə bu xatirələrlə bağlı idi. O, işlərin gedişi, əldə olunun uğurlar barədə həvəslə məlumat verdi:**

– Bizim Arayatlı kəndində tarixən pambıqçılığa böyük həvəs və maraq olmuşdur. Daha doğrusu, bizim camaat bu qiymətli strateji bitkinin dilini yaxşı bilir. Təsadüfi deyildirk ki, ölkə Prezidenti İlham Əliyevin pambıqçılığın inkişafı ilə bağlı imzaladığı sərəncamlardan, bu istiqamətdə qəbul edilmiş dövlət proqramlarından, diqqət və qayğıdan sonra böyük inam və ümidlə pambıqçılıqla məşğul olmağa başladıq. 45 hektarda pambıq yetişdiririk. Bu isə ötən ildəkindən 20 hektar çoxdur. Məhsuldarlıq barədə isə hədəfimiz belədir: hər hektardan 30 sentner “ağ qızıl” götürməli. Emal müəssisəsi ilə bağladığımız müqavilə şərtlərinə uyğun olaraq maşın-mexanizm, yanacaq, kübrə və s. cəhətdən heç bir çətinliyimiz yoxdur.



Onu da əlavə edirəm ki, gələcəkdə pambıq əkini sahələrini ən azı 2 dəfə artırmağı qərara almışıq.

Biz Oktay Quliyevin, Xaləddin Həsənovun, Vaqif Hacıyevin, Rasim Ağayevin başçılıq etdikləri fermer təsərrüfatlarında da olduq, işlərin gedişi ilə maraqlandıq. Hər yerdə də bol məhsul yetişdirildiyinin, kənd əməkçilərinin böyük səy və fədakarlıqla çalışdıqlarının şahidi olduq. Bizdə belə bir möhkəm inam yarandı ki, Füzuli rayonu cari ildə taxılçılıq, pambıqçılıq, baramaçılıq və digər sahələrdə öz göstəricilirini daha da artıracaq, ölkəmizdə ərzaq bolluğunun yaradılmasına öz layiqli töhfəsini verəcəkdir.

Günün sonunda rayon icra hakimiyyəti yanında yaradılmış qərargaha gəldik. Burada işlərin gedişi saat mexanizmini xatırladır desək, heç də səhv etmərik. Qərargah üzvləri məhsul yığımı ilə əlaqədar olaraq bütün işlərə nəzarət edir, çətinliklər dərhal aradan qaldırılır, gündəlik nəticələr təhlil edilir, görüləcək işlər planlaşdırılır. Işin bu cür təşkili isə gecikmə və boşdayanma hallarını aradan qaldırır, surət və operativliyi təmin edir.

Yeri gəlmişkən, onu da xatırladaq ki, ölkə Prezidenti İlham Əliyev respublikada ərzaq bolluğunun yaradılması, əhalinin mühüm strateji məhsul olan taxıla olan tələbatının daxili imkanlar hesabına ödənilməsini təmin etmək üçün ölkədə iri taxılçılıq təsərrüfatının yaradılmasını qarşıya məqsəd qoymuşdur. Kənd təsərrüfatının inkişafı ilə bağlı təsdiq edilmiş Strateji Yol Xəritəsinə uyğun olaraq, rayonda hər birinin sahəsi 1000 hektar olan 4 iri taxılçılıq təsərrüfatı yaradılıb, 2700 hektar torpaq sahəsi müxtəlif növ kənd təsərrüfatı məhsulları istehsal edəcək Aqroparkın istifadəsinə verilib. Aqroparkın ərazisində birinci mərhələdə 1000 hektar sahədə ölkənin strateji maraqlarına uyğun olaraq soya, qarğıdalı, taxıl, pambıq və digər bitkilər becəriləcək, həmçinin 1000 baş müasir-intensiv südlük istiqamətli heyvandarlıq kompleksi yaradılacaqdır. Aqroparkın istifadəyə verilməsi ilə rayon ərazisində, xüsusilə 11 Qayıdış qəsəbələrində yaşayan yüzlərlə məcburi köçkün işlə təmin olunacaqdır. Layihənin bütövlükdə 2018-ci ildə tam başa çatdırılması nəzərdə tutulub. 500 hektar sahə isə rayonun taxıl istehsalçılarını yüksək məhsuldar toxumla təmin etmək üçün Azəraqro MMC-yə verilib.

Prezident cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən rayonda yaradılan 4 iri taxılçılıq təsərrüfatlarında xüsusilə yüksək məhsuldarlıq əldə edilir.

Ümumiyyətlə, cari ildə 36419 hektarda taxıl əkini aparılmışdır ki, bunun da 28394 hektarı buğda, 8025 hektarı isə arpadır. Havaların əlverişli keçməsi, yerlərdə işin düzgün təşkili, zəmilərin hazırkı vəziyyəti göstərir ki, taxılçılar biçin kampaniyasını itkisiz və optimal müddətdə başa çatdıracaq, nəzərdə tutulmuş hədəf uğurla yerinə yetiriləcəkdir.

Aqrar rayon olan Füzulidə taxılçılıqla yanaşı, digər sahələrin də inkişafına xüsusi diqqət yetirilir.



Ölkə başçısının respublikada ənənəvi təsərrüfat sahələri olan pambıqçılığın və baramaçılığın inkişaf etdirilməsi, əhalinin bu sahənin hesabına məşğulluğunun təmin olunması barədə tapşırıqlarına uyğun olaraq 2018-ci ildə rayonda 2100 hektar pambıq əkilmişdir. Fermerlərin və kənd əməkçilərinin 287 nəfəri Füzuli Kənd Təsərrüfatı MMC ilə, 80 nəfəri “Azərpambıq” MMC ilə müqavilə bağlamışdır.

Strateji məhsul olan pambıq əkini 2016-cı ildə rayon üzrə 505 hektar olduğu halda, 2017-ci ildə 2050, 2018-ci ildə isə 2100 hektara çatdırılmışdır.

Pambıq əkininin illər üzrə artırılması isə rayonda minlərlə məcburi köçkün ailəsi mövsümü işlərə cəlb olunur. Bu, onların həm məşğulluğunu təmin edir, həm də yaşayış səviyyəsini yaxşılaşdırır.

Daha bir sevindirici cəhət ondan ibarətdir ki, bu gün Füzulidə əhalinin heyvandarlıq və bostan-tərəvəz məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir. Sahibkarlığın inkişafı da diqqət mərkəzindədir. Bunun nəticəsidir ki, yüzlərlə şəxs rayonda sahibkarlıq fəaliyyəti ilə məşğul olur, iqtisadiyyatın möhkəmlənməsində yaxından iştirak edir. Onlarla insan rayonda kənd təsərrüfatı, kiçik emal müəssisələri yaradır, yeni iş yerləri açır, sahibkarlıq fəaliyyətini genişləndirir. Məsələn, ötən il Horadiz şəhərində 10 hektar ərahzidə istixana kompleksi, Zobucuq qəsəbəsi ərazisində kənd təsərrüfatı məhsullarının satış yarmarkası və digər obyektlər iş adamları tərəfindən yaradılmışdır. Təkcə bu müddətdə sahibkarlıq fəaliyyəti ilə əlaqədar 12 milyon manatdan artıq investisiya qoyulmuş, rayonda kənd təsərrüfatının yerli istehsalın inkişafına xidmət göstərən bir sıra tədbirlər həyata keçirilmiş, özəl sektorun çəkisi artırılmışdır.

**_…Bərəkətli Qarabağ torpaqları qoynunda yetişdirdiyi bol nemətləri səxavətlə öz sahiblərinə qaytarır. Taxılçı da sevinir, pambıqçı da, baramaçı da… Özü də bu sevincə səbəb təkcə yetişdirdikləri məhsul, əldə etdikləri bol qazanc, xoşbəxt gün-güzəran deyil. Bir səbəb də var: sabaha olan möhkəm ümid, torpaqlarımızın azad olunmasına, qələbəyə böyük inam…_**

**_Ziyəddin SULTANOV,_**
**_“Xalq qəzeti”nin bölgə müxbiri_**